# Əlәmdar QULUZADƏ - 70



Hörmətli Ələmdar müəllim!

Sizi - istedadlı şairi 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

1952-ci il yanvar ayının 7-də keçmiş DQMV-nin Xocalı kəndində anadan olmusunuz. Orta təhsilinizi Xocalı kənd orta məktəbində almısınız. 1973-cü ildə Azərbaycan Pedaqoji İnstitutu Xankəndi filialının Azərbaycan dili və ədəbiyyatı fakültəsini Fərqlənmə diplomu ilə bitirmisiniz.

1973-cü ilin noyabrına qədər respublika zərbəçi komsomol tikintisi olan Sərsəng su dəryaçasında azad komsomol komitəsinin katibi işləmiş, daha sonra Sovet ordusu sıralarında xidmət etmisiniz. 1974-cü ilin dekabrında ordudan tərxis olunandan sonra əvvəlcə Xocalı kənd orta məktəbində, 1975-ci ilin aprelindən 1977-ci ilin dekabrınadək Xankəndidəki fəhlə-gənclər məktəbində müəllim, 1977-ci ilin dekabrından 1988-ci ilin sentyabrınadək keçmiş DQMV Radio Verilişləri Komitəsində müxbir işləmisiniz.

Həmin vaxtdan sonra respublika radiosunda fəaliyyət göstərmiş, 1996-cı ilin avqustundan 2021-ci ilədək Uşaq verilişləri redaksiyasının Baş redaktoru olmusunuz.

1983-cü ildən Yazıçılar Birliyinin, 1988-ci ildən isə Respublika Jurnalistlər Birliyinin üzvüsünüz.

"Dağların yaddaşı", "Ömür-gün qabaqdadır", "İsti ocaq", "Tumurcuqlar", "Beş qitənin uşaqları", "Qarabağ oyunu", "Şəhid şəhər", "Alay komandiri", "Mənə söz verin", "Məhləmizin uşaqları", "Məni yoldan eləmə", "Qadan mənə, Qarabağ", "Boğça", "Qürbətə düşən daş", "Dilotu", "Ətirşah ətri", "Ürəyindən keçəydim", "Navalça", "614-cü şəhid", "Bulaq suyu", "Kəpənəklər oxumur" kitablarının müəllifisiniz.

Hörmətli Ələmdar müəllim!

Sizi yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**